17 (1374) 1-7 may 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## QUSARDA BAĞÇILIQ KOMPLEKSİ TORPAQLARDAN MAKSİMUM SƏMƏRƏLİ İSTİFADƏYƏ İMKAN VERƏCƏK



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Qusar rayonunda "İsmikhanlı" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) bağçılıq və soyuducu anbar kompleksi ilə tanış olub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına kompleksin fəaliyyəti barədə məlumat verib.

Bildirilib ki, cəmiyyət tərəfindən Qusarda 330, Ağsuda isə 30 hektar ərazidə ən son texnologiyalar əsasında intensiv bağlar salınıb.

Burada yetişdirilən meyvələrin satış və ixrac prosesi il boyu davam etdirilir. Məhsullar yerli bazara çıxarılmaqla yanaşı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Rusiyaya ixrac olunur.

Bağlarda aqrotexniki işlərin daha dəqiq və səmərəli görülməsi məqsədilə Türkiyə, İtaliya və İspaniyadan mütəxəssislər cəlb olunub. Layihə dəyəri 18 milyon manat olan "İsmikhanlı" bağçılıq və soyuducu anbar kompleksində 270 nəfər daimi, 400 nəfər isə mövsümi işlə təmin olunub. Layihənin reallaşmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 3,3 milyon manat güzəştli kredit ayrılıb. Müəssisə avadanlıqların idxalı zamanı gömrük və vergi güzəştlərindən yararlanıb.

## "İRAN PREZİDENTİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ƏLAQƏLƏRİMİZİN YÜKSƏK SƏVİYYƏDƏ OLMASININ TƏZAHÜRÜDÜR"



"Xalqlarımız əsrlər boyu mehribanlıq, qardaşlıq şəraitində yaşayıblar. Bu gün bu möhkəm təməl üzərində dövlətlərarası münasibətlərimiz inkişaf edir".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti Məsud Pezeşkian ilə mətbuata bəyanatında deyib. Dövlətimizin başçısı qeyd edib ki, İran Prezidentinin Azərbaycana rəsmi səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür.

## "AZƏRBAYCAN VƏ İRAN ƏNƏNƏVİ OLARAQ BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ BİR-BİRİNİ DƏSTƏKLƏYİR"

"Biz (Azərbaycan və İran – red.) ənənəvi olaraq beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi dəstəkləyirik. Bu barədə bu gün də fikir mübadiləsi aparıldı və gələcək birgə əməkdaşlıq çərçivələri müzakirə edildi". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti Məsud Pezeşkian ilə mətbuata bəyanatında səsləndirib.

Dövlətimizin başçısı deyib ki, istər BMT olsun, İslam Əməkdaşlıq Təşkilatı, ECO, Qoşulmama Hərəkatı, digər təşkilatlar çərçivəsində bizim nümayəndələrimiz daim bir-birinin yanındadır.

## "QARABAĞ AZƏRBAYCANIN AYRILMAZ HİSSƏSİDİR VƏ BUNA HÖRMƏTLƏ YANAŞIRIQ"

"Sizin, Azərbaycanın və əziz Azərbaycan xalqının Qarabağda və Azərbaycanın sahib çıxmalı olduğu digər ərazilər üzərindəki hüququnu tanıyırıq. Biz inanırıq ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və buna hörmətlə yanaşırıq".

Bu sözləri İran Prezidenti Məsud Pezeşkian Azərbaycan Prezidenti İlham Əliyevlə geniş tərkibdə görüşdə bildirib.

*"Təbii ki, bizim burada olmağımız əlaqələrimizin və birliyimizin möhkəmlənməsinə imkan yaradacaq"*, - deyə İran Prezidenti əlavə edib.

## "BİZ NƏQLİYYAT İMKANLARIMIZI VƏ İNFRASTRUKTURUMUZU GENİŞLƏNDİRİRİK"

"Biz bu gün təbii olaraq üçtərəfli əməkdaşlıq layihələrini müzakirə etdik. Onların arasında təbii olaraq Şimal-Cənub nəqliyyat dəhlizi xüsusi yer tutur".

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti Məsud Pezeşkian ilə mətbuata bəyanatında bildirib.

Bu layihənin bütün iştirakçı ölkələr üçün çox böyük səmərə gətirəcəyini, böyük fayda verəcəyini söyləyən dövlətimizin başçısı Azərbaycanın öz ərazisində bu nəqliyyat dəhlizinin fəaliyyəti üçün bütün lazımi infrastruktur layihələrini həyata keçirdiyini qeyd edərək deyib: *"Hazırda biz, sadəcə olaraq, artacaq yükləri nəzərə alaraq öz nəqliyyat imkanlarımızı və infrastrukturumuzu genişləndiririk"*.




## "BİR ÇOX MƏSƏLƏLƏRDƏ BİR-BİRİMİZİN TƏCRÜBƏSİNİ ÖYRƏNƏ BİLƏRİK"



"Biz bu regionda mədəni, dini etiqad, fikir, siyasət və proqramlar baxımından çox sayda müştərək məqamlara malikik və biz bu müştərəkliklərlə fəxr edirik".

Bu sözləri İran Prezidenti Məsud Pezeşkian Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata bəyanatında deyib.

İran Prezident bildirib: *"Biz çalışacağıq ki, əlaqələrimizi güclü şəkildə davam etdirək. Biz bir çox məsələlərdə bir-birimizin təcrübəsini öyrənə bilərik"*.

## "ƏLDƏ EDİLMİŞ RAZILAŞMALAR İRAN-AZƏRBAYCAN DOSTLUĞUNU, QARDAŞLIĞINI BİR DAHA TƏSDİQLƏYİR"

"Səfər zamanı əldə edilmiş razılaşmalar, imzalanmış sənədlər bir daha İran-Azərbaycan dostluğunu, qardaşlığını təsdiqləyir. Bir sözlə, bu rəsmi səfərin çox gözəl siyasi nəticələri vardır".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Bakıda keçirilən Azərbaycan-İran biznes forumunda söyləyib.

Dövlətimizin başçısı imzalanmış sənədlər arasında xüsusilə prezidentlər tərəfindən imzalanmış Birgə Bəyanatı qeyd edib. Deyib ki, bu, çox ciddi sənəddir və gələcək əməkdaşlıq üçün bizə yol göstərən sənəddir.

## "AZƏRBAYCAN VƏ İRAN ÖNƏMLİ BEYNƏLXALQ LAYİHƏLƏRDƏ İŞTİRAK EDİR"

"Azərbaycan və İran, eyni zamanda, önəmli beynəlxalq layihələrdə iştirak edir, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizi üzrə biz sıx əməkdaşlıq edirik".

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Bakıda keçirilən Azərbaycan-İran biznes forumunda səsləndirib.

Dövlətimizin başçısı qeyd edib: *"Biz istəyirik ki, bu, sadəcə olaraq, nəqliyyat dəhlizi olmasın, yol boyunca yeni bizneslərin açılması, yeni sənaye müəssisələrinin yaradılması üçün imkan yaratsın, həm Azərbaycan, həm İran ərazisində"*.

## "İRAN VƏ AZƏRBAYCAN ŞƏRQİ QƏRBƏ, ŞİMALI CƏNUBA BİRLƏŞDİRƏN DÖRDYOL OLA BİLƏR"

"Biz sülh, təhlükəsizlik və rifah dolu bir region yarada bilərik".

Bu sözləri İran Prezidenti Məsud Pezeşkian Bakıda keçirilən Azərbaycan-İran biznes forumunda söyləyib. Prezident İlham Əliyevə bütün sahələrdə əməkdaşlığa hazır olduqlarını bildirdiklərini deyən Prezident Məsud Pezeşkian qeyd edib: *"İran və Azərbaycan Şərqi Qərbə, Şimalı Cənuba birləşdirən dördyol ola bilər. Biz elə coğrafi mövqedə yerləşirik ki, bu kommunikasiyanı yarada bilərik"*.

## "İRAN ŞİRKƏTLƏRİ AZƏRBAYCANDA İNFRASTRUKTUR LAYİHƏLƏRİNDƏ İŞTİRAKA DƏVƏT EDİLİB"

"Dövlət xətti ilə Azərbaycanda bir çox infrastruktur layihələri həyata keçirilir. Biz İran şirkətlərini bu layihələrdə iştiraka dəvət edirik".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Bakıda keçirilən Azərbaycan-İran biznes forumunda deyib.

*"Dəmir yolları, avtomobil yolları, kommunikasiya xətləri, elektrik xətləri - bütün bu layihələr bizdə bu gün əsas gündəlikdədir"*, - deyə dövlətimizin başçısı vurğulayıb.

# Qaz şəbəkəsinin hər kilometri üzrə xərcləri 15 faizə qədər azaltmaq əsas hədəfimizdir

"Azəriqaz" İstehsalat Birliyinin Yeni Əməliyyat Modelinə keçidi davam edir".



Bu sözləri "Azəriqaz" İB-nin baş direktorunun birinci müavini Nail Abdullayev "Caspian Energy Club"ın təşkilatçılığı ilə keçirilən Milli Biznesin İnkişafı Forumunda çıxışı zamanı deyib.

O bildirib ki, 2023-2025-ci il ərzində keçirilmiş 4 rəhbər komitədə 27 təşəbbüs təsdiq edilib.

*"Texniki itkiləri 50 faizdən çox azaltmaq, plastik yeraltı qaz xətlərinin tətbiqi ilə şəbəkənin 10 min kilometrlik hissəsini modernizasiya etmək, qaz təchizatının fasiləsizliyini 5 qat artırmaq (SAIDI), müştəri məmnuniyyəti indeksini (ASAN index qiymətləndirmə) 1-ci pilləyə yüksəltmək, qaz şəbəkəsini rəqəmsallaşdırmaqla SOCAR qrupunda aparıcı innovativ şirkət olmaq, bir kilometr üzrə kapital xərclərini 15 faizə qədər azaltmaq bizim əsas hədəflərimizdir"*, - deyə o qeyd edib.

Nail Abdullayev əlavə edib ki, Azərbaycanda qazlaşma səviyyəsi artıq 97 faizə çatıb.

Qeyd edək ki, Bakıda "Caspian Energy Club" və Azərbaycan Milli Biznes Assosiasiyasının birgə təşkilatçılığı ilə Milli Biznesin İnkişafı Forumu keçirilir.

# Bakıda faktorinq və lizinq ilə bağlı çətinliklər müzakirə edilib




"PAŞA Bank" lizinq və faktorinq sahəsində əməkdaşlıq, inkişaf imkanlarını müzakirə edib

Ölkənin aparıcı korporativ maliyyə institutu "PAŞA Bank" 29 aprel 2025-ci il tarixində Bakıda "Lizinq və faktorinq: İnkişafın ikitərəfli həlli" adlı konfrans keçirib.

Konfrans çərçivəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin faktorinq və lizinq məhsulları ilə bağlı qarşılaşdıqları çətinliklər, mövcud çağırışların tərəfdaşlara çatdırılması və Bankın "CustomerFirst" yanaşması ilə bağlı vacib məqamlar müzakirə olunub. Eyni zamanda, maliyyələşmənin sürəti və şəffaflığı, sənəd dövriyyəsinin sadəliyi, onlayn platformaların mövcudluğu və həmin platformaların texniki dəstək keyfiyyəti barədə fikir mübadiləsi aparılıb. Həmçinin, tərəflər arasında müqavilə şərtləri, faizlər və limitlərə dair şəffaf yanaşmaların tətbiqi və məsuliyyət və risk bölgüsünün ədalətli şəkildə aparılması da diqqət mərkəzində olub.

"PAŞA Bank"ın KOS və KİB rəqəmsal məhsul üzrə aparıcı direktoru Heydər Süleymanov çıxış edərək, Bankın təqdim etdiyi faktorinq xidmətinin biznesin maliyyə əlçatanlığını artırmaq və çevikliyini gücləndirmək baxımından əhəmiyyətini vurğulayıb.

*"Faktorinq məhsulumuz, sahibkarlara, girovsuz və maliyyə analizi olmadan dərhal maliyyə axınlarını tənzimləmək imkanı verir. Bu məhsulun əsas üstünlüyü odur ki, sahibkarlar mal və ya xidmət təqdim etdikdən sonra PAŞA Banka təqdim etdikləri qaimələr əsasında gözlənilən ödənişi daha qısa müddətdə əldə edirlər. Bu xüsusiyyət, sahibkarlara likvidlik təmin edir və işlərini daha səmərəli idarə etməyə imkan yaradır"*, - deyə Süleymanov bildirib.

Bank rəsmisi qeyd edib ki, "PAŞA Bank" sahibkarların qarşılaşdıqları çətinlikləri aradan qaldırmaq üçün müasir texnologiyalardan geniş istifadə edir.

*"Məsələn, rəqəmsal platformalarımız üzərindən faktorinq əməliyyatlarını daha sürətli, daha şəffaf və daha rahat həyata keçirə bilirik. Bu, müştərilərimizin vaxtına qənaət etməyə və bazardakı dəyişikliklərə daha sürətli uyğunlaşmalarına imkan verir"*, - deyə H.Süleymanov bildirib.

Qeyd edək ki, tədbirdə Dövlət Vergi Xidmətinin, Dövlət Gömrük Komitəsinin təmsilçiləri, "PAŞA Bank"ın rəhbər heyəti, özəl sektorun nümayəndələri, sahibkarlar da daxil olmaqla 100-ə yaxın qonaq iştirak edib.

# Bankların faiz gəlirləri artıb

Cari ilin birinci rübündə Azərbaycanda fəaliyyət göstərən bankların faiz gəlirlərinin həcmi 1,134 milyard manat olub.

Trend bu barədə Azərbaycan Mərkəzi Bankından məlumat əldə edib.

Məlumata görə, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 171,4 milyon manat və ya 17,8% çoxdur.

Belə ki, ötən ilin birinci rübündə Azərbaycanda fəaliyyət göstərən bankların faiz gəlirlərinin həcmi 962,6 milyon manat idi.

Cari ilin yanvarında bankların faiz gəlirləri 377,2 milyon manat, fevralında 375,4 milyon manat, martda isə 382,3 milyon manat olub.

Qeyd edək ki, birinci rübdə faiz gəlirlərinin 897,8 milyon manatı kreditlər üzrə, 62,5 milyon manatı maliyyə sektorunda yerləşdirilmiş vəsaitlər üzrə, 132,5 milyon manatı qiymətli kağızları üzrə, 42,1 milyon manatı digər faiz gəliri üzrə olub.

# Mobil bankçılıq əməliyyatlarının ümumi məbləği azalıb

Bu ilin I rübündə Azərbaycanda 13,732 milyard manatlıq mobil bankçılıq əməliyyatları aparılıb.




Mərkəzi Bankın məlumatına görə bu, ötən ilin eyni dövrü ilə müqayisədə 7,3% azdır.

Bununla belə, son 1 ildə mobil bankçılıq əməliyyatlarının sayı isə 39,5% artaraq 169 213-ə çatıb.

Bundan başqa, yanvar-mart aylarında ölkədə internet bançılıq əməliyyatlarının ümumi məbləği 6,8% artaraq 63,296 milyard manata, sayı isə 28,7% artaraq 5 978-ə çatıb.

# Qazaxıstan Azərbaycana taxıl tədarükünü artırıb



Qazaxıstan Azərbaycan və İrana taxıl tədarükünü əhəmiyyətli dərəcədə artırıb.

Trend xəbər verir ki, bu barədə Qazaxıstan Dəmir Yollarının (QDY) mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, 2024-cü ilin sentyabr ayından 27 aprel 2025-ci ilə qədər olan müddət ərzində Qazaxıstandan yeni məhsul yığımından olan taxılın ixrac həcmi 7,5 milyon ton təşkil edib ki, bu da 2023/2024 kənd təsərrüfatı ilinin analoji müddəti ilə müqayisədə 56 faiz çoxdur.

*"İrana ixrac həcmi 16 dəfə artaraq 54 min tondan 871 min tona, Azərbaycana isə 111 dəfə artaraq 5 min tondan 557 min tona çatıb"*, - deyə QDY-dən bildiriblər.

Həmçinin, qeyd olunur ki, Qazaxıstan taxılının Mərkəzi Asiya və Yaxın Şərq ölkələrinə tədarükü sabit artım dinamikası nümayiş etdirir.

Belə ki, Özbəkistana ixracat 29,7 faiz artaraq 2,0 milyon tondan 2,7 milyon tona, Tacikistana isə 50 faiz artaraq 718 min tondan 1 milyon 76 min tona, Əfqanıstana 33,8 faiz artaraq 201 min tondan 269 min tona, Qırğızıstana isə iki dəfə artaraq 88 min tondan 178 min tona çatıb.

2024-cü ilin dekabr ayında Qazaxıstan Azərbaycana 101 min ton taxıl ixrac edib ki, bu da əvvəlki aylarla müqayisədə əhəmiyyətli artım deməkdir. 2024-cü il ərzində Azərbaycana göndərilən ümumi taxıl həcmi 210 min ton təşkil edib.

# Azərbaycan Çindən 26 milyon dollar dəyərində lokomotiv və ehtiyat hissələri alır



"Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi"nin (AZCON Holding) tərkibində fəaliyyət göstərən "Azərbaycan Dəmir Yolları" QSC (ADY) Çinin "CRRC Ziyang Co., Ltd" şirkətindən 7 ədəd yeni lokomotiv və ehtiyat hissələri əldə edəcək.

ADY-dən bildirilib ki, lokomotivlərin və ehtiyat hissələrinin alınması ilə bağlı bütün texniki və kommersiya məsələləri razılaşdırılıb. Sazişin ümumi dəyəri 26 milyon dollar təşkil edir.

Qabaqcıl texnologiyalarla, innovativ dartı sistemləri ilə təchiz olunmuş və yüksək texniki göstəricilərə malik müasir AC50 tipli magistral dizel lokomotivi yüksək dartı gücü, daha böyük yanacaq tutumu və etibarlılığı ilə seçilir.

AC50 modeli Beynəlxalq Dəmir Yolları İttifaqı (UIC) tərəfindən müəyyən edilmiş IIIA səviyyəli ekoloji standartlara cavab verir. Bu, lokomotivdən xüsusi emissiya tələbləri olan ərazilərdə istifadə etməyə imkan verir. Lokomotivlərin xüsusən "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi" üzrə, eləcə də digər istiqamətlərdə artan yükdaşımalara xidmət etmək məqsədilə istifadəsi nəzərdə tutulur.

Növbəti mərhələdə əlavə 14 ədəd magistral lokomotivin alınması planlaşdırılır.

# Ağdamın energetika təsərrüfatı ilə bağlı 9,7 milyon manatlıq işlərə başlanılır

Ağdam rayonunda faza-2 yaşayış məhəlləsi üzrə energetika təsərrüfatı sistemləri ilə bağlı yeni işlərə başlanılır.

Trend-in əldə etdiyi məlumata görə, həmçinin həmin yaşayış məhəlləsi üzrə sahədaxili mühəndis kommunikasiya sistemləri (su, kanalizasiya, yağış suyu kanalizasiya, elektrik təchizatı, xarici işıqlandırılma, yol və səkilər) və yaşıllıq, abadlıq işləri də həyata keçiriləcək.

Belə ki, artıq bununla bağlı Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətində müvafiq işlərə start verilib. Eyni zamanda qurum görüləcək işlərin 9,7 milyon manata başa gələcəyini proqnozlaşdırıb.

# İcbari sığorta bazarı 4% kiçilib

Bu ilin yanvar-mart ayları ərzində Azərbaycanda fəaliyyət göstərən şirkətlər tərəfindən icbari sığorta növləri üzrə 91 milyon 138 min manat həcmində sığorta haqqı yığılıb.

Banker.az Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, şirkətlər tərəfindən icbari sığorta növləri üzrə 29 milyon 927 min manat ödəniş həyata keçirilib.

2024-cü ilin eyni aylarında icbari sığorta üzrə yığımlar 94 milyon 829 min manat, ödənişlər isə 29 milyon 191 min manat olub.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə sığorta yığımları 4% azalıb, ödənişlər isə 2.5% artıb.

2025-ci ilin 3 ayında icbari həyat sığortası üzrə 24 milyon 153 min manat sığorta haqqı yığılıb, 1 milyon 26 min manat həcmində ödəniş edilib. Qeyri-həyat sığortası növləri üzrə yığımlar 66 milyon 985 min manat, ödənişlər isə 28 milyon 902 min manat təşkil edib.

# Naxçıvanda elektron xidmətlərdən istifadənin dairəsi genişlənib

"Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən elektron xidmətlərin ölkə üzrə vahid sistemlərə inteqrasiyası davam edir".

Bunu Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov Hərracların Təşkili Mərkəzinin açılış mərasimində bildirib.

Qeyd olunub ki, İqtisadiyyat Nazirliyi tərəfindən vətəndaşlara və sahibkarlara ümumilikdə 190 xidmət göstərilir, onlardan 110-u elektronlaşdırılıb, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi və onun tabeli qurumları 9 elektron informasiya sisteminə inteqrasiya olunub.

Nazir müavini bildirib ki, bu inteqrasiya sayəsində vergi orqanlarında məlumatların saxlanılması və emalı prosesi asanlaşıb, eyni zamanda operativ informasiya mübadiləsi təmin edilib. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən tətbiq edilmiş müasir vergi inzibatçılığı nəticəsində 1 yanvar 2023-cü illə müqayisədə 1 aprel 2025-ci il tarixə Asan imza sertifikatlarının sayı 2,2 dəfə artaraq 19534-dən 43643-ə çatdırılıb.



Dövlət əmlakının idarə olunması və daşınmaz əmlakın qeydiyyatı sahəsində informasiya texnologiyalarının tətbiqi və elektronlaşdırma istiqamətində mühüm addımlar atıldığını vurğulayan Abbas İsmayılov bildirib ki, 2024-cü il ərzində elektron xidmətlər vasitəsilə daxil olan müraciətlərin sayı 2023-cü illə müqayisədə 4,8 dəfə, 2025-ci ilin ilk 3 ayında isə ötən ilin müvafiq dövrünə nisbətən 40,3 faiz artıb.

# Azərbaycan iqtisadiyyatına kredit qoyuluşu 17%-ə yaxın artıb

Bu ilin aprelin 1-nə Azərbaycan iqtisadiyyatına kredit qoyuluşu 29,7 milyard manat təşkil edib.

Bu barədə Trend Azərbaycan Mərkəzi Bankına (AMB) istinadən xəbər verir.

Məlumata görə, bu, aylıq müqayisədə 277 milyon manat və ya 0,9%, ötən ilin eyni dövrünə nisbətən isə 4,2 milyard manat və ya 16,6% çoxdur.

Hesabat dövründə kredit qoyuluşunun 7,2 milyard manatı özəl bankların payına düşüb ki, bu da bir ay əvvələ nisbətən 65 milyon manat və ya 0,9%, ötən ilin aprelin 1-i ilə müqayisədə isə 1,3 milyard manat və ya 20,9% artım deməkdir.

Bundan əlavə, 2025-ci ilin aprelin 1-nə özəl bankların kredit qoyuluşları 20,6 milyard manata bərabər olub. Bu isə aylıq müqayisədə 219 milyon manat və ya 1,1%, 2024-cü ilin eyni dövrünə nisbətən isə 2,5 milyard manat və ya 13,9% çoxdur.



# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzi fəaliyyətə başlayıb







***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvləri ilə görüş keçirilib.***

***Konfederasiya sədri Sahib Məmmədov ölkəmizdəki demokratik mühitin həmkarlar ittifaqlarının səmərəli fəaliyyətinə və əmək hüquqlarının effektiv müdafiəsinə açdığı geniş imkanlardan danışıb, dövlətimizin bu sahəyə diqqət və qayğısını vurğulayıb.***

Bildirilib ki, ittifaq üzvlərinin əmək, sosial və iqtisadi hüquqlarının müdafiəsi, qabaqcıl beynəlxalq standartlara uyğun sağlam və təhlükəsiz iş şəraitinin yaradılması istiqamətində kompleks addımlar atılır, müalicə və istirahətinin səmərəli təşkili məqsədilə sanatoriya-kurort müəssisələrinin fəaliyyəti davamlı olaraq təkmilləşdirilir.

AHİK-də aparılan struktur və kadr islahatlarından, qadınların və gənclərin həmkarlar ittifaqları sistemində rolunun artırılması istiqamətində görülən işlərdən danışan Konfederasiya sədri yeni layihələr, o cümlədən “AHİK könüllüləri”, “Layiqli Əmək Səfirləri”, “AHİK Plus”, “Həmkardan həmkara qayğı ilə”, “Sağlamlığa doğru qaç” layihələri barədə deputatlara məlumat verib. Vurğulanıb ki, yollayışların vahid mərkəzdən verilməsi üçün “Kurort” Turizm İnformasiya Mərkəzi yaradılıb, hazırda prosesin tam rəqəmsallaşdırılması işləri aparılır.

Görüşdə Milli Məclisin Əmək və sosial siyasət komitəsi ilə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti və həmkarlar ittifaqı sisteminin inkişafına verəcəyi töhfələrdən də bəhs olunub.

Sonra AHİK-nin fəaliyyəti, eləcə də “Layiqli Əmək Səfirləri”, “Həmkardan həmkara qayğı ilə”, "AHİK Plus" layihələrindən bəhs edən videomateriallar nümayiş olunub.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Konfederasiya tərəfindən həyata keçirilən islahatları və yenilikləri yüksək qiymətləndirib, əmək münasibətlərinin tənzimlənməsi, ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafında həmkarlar ittifaqlarının xüsusi rolunu qeyd edib. Musa Quliyev sosial sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı görülən işləri diqqətə çatdırıb, eləcə də AHİK-lə əlaqələrin inkişafının əmək hüquqlarının qorunmasında önəmini vurğulayıb.

Görüşdən sonra Milli Məclisin üzvləri AHİK-də vətəndaşların qəbulu üçün yaradılmış şəraitlə, həmçinin Çağrı Mərkəzi ilə tanış olublar.

*Ardınca dövlət qurumları nümayəndələrinin və deputatların iştirakı ilə AHİK tərəfindən yeni yaradılan Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinin açılışı olub.*

Bununla əlaqədar keçirilən tədbirdə Konfederasiya sədri Sahib Məmmədov Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinin vəzifələri və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Bildirilib ki, Mərkəzdə əmək müfəttişləri tərəfindən ittifaq üzvlərinin müraciətləri cavablandırılacaq, əmək münasibətlərində qarşılaşdıqları hüquqi məsələlərlə bağlı onlara yardım göstəriləcək, maarifləndirmə işləri aparılacaq.

***Tədbirdə çıxış edən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli və deputat Ziyad Səmədzadə Konfederasiya tərəfindən həyata keçirilən layihələrin, tətbiq olunan yeniliklərin önəmini vurğulayıb, görülən işlərin dövlətimizin sosial siyasətinə əhəmiyyətli töhfə olduğunu qeyd edib, Mərkəzin fəaliyyətinə uğurlar arzulayıblar.***

***Sonra Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinə baxış keçirilib. İştirakçılar həmçinin eyni məkanda yerləşən “Kurort” Turizm İnformasiya Mərkəzinin fəaliyyəti ilə də tanış olublar.***

# Qarabağ iqtisadi rayonunda islam maliyyəsinin istifadə imkanlarının genişləndirilməsi məsələləri

*(əvvəli ötən sayımızda)*



**EBRU KALAN,**
**Türkiyə Cümhuriyyəti,**
**UNEC doktorantı**

Bu gün dünyanın ən böyük sukuk mənbəyi olan Malayziya məhsulun əsas dəstəkçisi/pioneridir. Qlobal miqyasda sukukun emissiyası islam maliyyə sənayesində çox təsir edici olmuşdur. Sukukun 2000-ci ildə istifadəyə verilməsindən bəri (0,3 milyard ABŞ dolları) ümumi qlobal sukukun emissiyası 2011-ci ilə qədər orta məcmu illik artım tempi təxminən 60 faiz olmaqla 84,4 milyard dollara çatmışdır (diaqram 2).

**3. Sosial və iqtisadi faydaların vurğulanması**

Sukuk istiqrazlarının investorlara təqdim edilməsi zamanı sosial və iqtisadi faydalar vurğulanmalıdır. Bu, sərmayədarların yalnız maliyyə qazancı deyil, həm də regionda sosial inkişafa töhfə verəcəklərini hiss etmələrinə kömək edir. **Məsələn:**

• *Bölgənin infrastrukturunun yenidən qurulması: Qarabağda yenidən qurulma prosesində sukuk istiqrazları, yolların, elektrik şəbəkələrinin, su təchizatının və digər infrastruktur obyektlərinin bərpasına sərmayə qoyulmasını təmin edə bilər.*

• *Yerli əhalinin iqtisadi qazancları: Sukuk istiqrazları ilə maliyyələşdirilən layihələr yerli əhaliyə iş yerləri yarada bilər. Bu da iqtisadiyyatın daha dayanıqlı və inklüziv olmasına gətirib çıxarar.*

**4. Hüquqi və tənzimləyici çərçivə**

İslam maliyyə alətlərinin uğurla tətbiqi üçün müvafiq hüquqi və tənzimləyici çərçivənin qurulması vacibdir. Qarabağda və ümumilikdə Azərbaycanda islam maliyyəsi ilə əlaqəli qanunvericilik və tənzimləmə strukturları inkişaf etdirilməlidir:

• *İslam maliyyəsi üçün hüquqi çərçivənin qəbul edilməsi: Sukuk istiqrazlarının buraxılması və ticarətinin qanuni olaraq mümkün olması üçün müvafiq qanunlar və tənzimləyici normativ aktlar hazırlanmalıdır. Bu, yerli və beynəlxalq sərmayədarlara təhlükəsizlik və etibarlılıq təmin edər.*

• *Maliyyə nəzarəti və şəffaflıq: İslam maliyyə alətlərinin istifadəsi ilə əlaqədar şəffaflıq və nəzarət mexanizmləri qurulmalıdır ki, sərmayədarlar layihələrin düzgün idarə olunduğunu və onların investisiyalarının etibarlı olduğunu bilsinlər.*




**Dünya üzrə cəmi sukuk ixracı milyon dollar. Mənbə: IIFM**

**5. Təhsil və maarifləndirmə**

Sukuk istiqrazlarının uğurla tətbiqi və geniş istifadə olunması üçün yerli və beynəlxalq sərmayədarlara islam maliyyəsi barədə təhsil və maarifləndirmə proqramları təşkil edilməlidir:

• *Seminarlar və konfranslar: islam maliyyəsinin əsasları, sukuk istiqrazlarının üstünlükləri və istifadəsi barədə seminarlar və konfranslar təşkil edilməlidir.*

• *Maliyyə qurumları ilə əməkdaşlıq: İslam maliyyəsi üzrə ixtisaslaşmış maliyyə qurumları və beynəlxalq banklar ilə əməkdaşlıq edərək, bu alətlərin geniş yayılmasına dəstək verilməlidir.*

Bu addımlar, Qarabağ iqtisadi rayonunda islam maliyyəsi vasitəsilə iqtisadi inkişafı sürətləndirə bilər və regiona həm yerli, həm də beynəlxalq sərmayələri cəlb etmək üçün mühüm bir yol açar.

# Zabuxçay su anbarının tikintisi yekunlaşmaq üzrədir

“Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti ilə dəniz suyunun duzsuzlaşdırılması layihəsi çərçivəsində Sumqayıt Sənaye Kimya Parkında günlük 300 min kubmetr içməli suyun istehsalı nəzərdə tutulan zavodun tikintisi 2,5 ilə planlaşdırılır”.

Bu sözləri Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) Elm və innovasiya sektorunun müdiri Əliağa Əzizov Milli Biznesin İnkişafı Forumunda çıxışı zamanı deyib.

O qeyd edib ki, ölkə ərazisində formalaşan su ehtiyatlarının təxminən 25 faizini təşkil edən Qarabağ və Şərqi Zəngəzurun su mənbələri ölkə üçün olduqca əhəmiyyətlidir.

*“İşğal dövründə Qarabağ və Şərqi Zəngəzurun su mənbələri və ekosistemi daxil olmaqla ətraf mühit ciddi zərər görüb. Regionda su təchizatı və idarəetməsinin yaxşılaşdırılması məqsədilə bir sıra mühüm infrastruktur layihələri həyata keçirilib və hazırda davam etdirilir”*, - deyə o qeyd edib.

O, həmçinin əlavə edib ki, Zabuxçay su anbarının tikintisi yekunlaşmaq üzrədir və Hacıqabul gölünün vəziyyətinin yaxşılaşdırılması planlaşdırılır.

# İnvestisiya platformalarının yaradılması iqtisadi inkişafı sürətləndirəcək

“İranın şimal-qərb vilayətləri rəhbərlərinin Prezident Məsud Pezeşkianın rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Azərbaycana səfər etmələri çox əhəmiyyətlidir. Bu vilayətlər əsasən Azərbaycan ilə sərhəddə yerləşir və ticarət əlaqələrinə malikdirlər”.

Bu sözləri İranın Şərqi Azərbaycan valisinin müavini Mortaza Məhəmmədzadə deyib.

O bildirib ki, ötən il İran ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 647 milyon dollar təşkil edib.

**“Əvvəlki illərlə müqayisədə artım müşahidə edilib. Lakin hər iki dövlətin iqtisadi potensialı dövriyyənin artmasına imkan verir. Vilayət rəhbərlərinin səfərdə iştirakı qarşılıqlı əlaqələrin bərpasına imkan verib. Səfərin uğurla başa çatması Şərqi Azərbaycan vilayəti üçün də əhəmiyyətlidir. Araz çayının hər iki sahilində investisiya platformalarının yaradılması tərəflərin iqtisadi inkişafını sürətləndirəcək və bu perspektivdə iş yerlərinin açılması, ticarətin çiçəklənməsi, iqtisadi imkanların artması mümkün olacaq”**, - deyə M.Məhəmmədzadə bildirib.

# "AzerGold" QSC-də hasilatın pay bölgüsü haqqında Saziş üzrə Rəhbər komitənin növbəti iclası olub




"AzerGold" QSC ilə "R.V. Investment Group Services, LLC ABŞ" arasında hasilatın pay bölgüsü haqqında saziş üzrə Rəhbər komitənin növbəti iclası keçirilib.
Rəhbər komitənin sədri, "AzerGold" QSC-nin İdarə Heyətinin üzvü – sədrin müavini Xəyyam Fərzəliyevin rəhbərliyi ilə keçirilən iclasda saziş sahələrində həyata keçirilən fəaliyyətə dair gündəliyə daxil edilmiş məsələlər müzakirə olunub.
İclasda əvvəlcə "Gədəbəy" saziş sahəsi üzrə fəaliyyət planı çərçivəsində görülmüş işlər müzakirə olunub, yataqda istismar işləri ilə əlaqədar icrası nəzərdə tutulan infrastruktur layihələri üzrə təkliflərə baxılıb, müvafiq qərarlar qəbul edilib.
Həmçinin Saziş üzrə dövləti təmsil etmək səlahiyyətinin "AzerGold" QSC-yə ötürülməsindən sonra digər saziş sahələrində istismara hazırlıq işləri çərçivəsində yerli qanunvericiliyin tələbləri və beynəlxalq standartlar əsasında həyata keçirilən tədbirlər nəzərdən keçirilib, qarşıdakı dövr üçün planlaşdırılan işlər müzakirə olunub.
Qeyd edək ki, hasilatın pay bölgüsü haqqında saziş üzrə layihəni idarə edən Rəhbər komitə "AzerGold" QSC, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "R.V. Investment Group Services, LLC" şirkətinin səlahiyyətli nümayəndələrindən təşkil olunub.
Xatırladaq ki, Azərbaycan Respublikasının 2024-cü il 21 iyun tarixli, 1176-VIQ nömrəli Qanunu ilə "Gədəbəy, Qoşa, Xarxar, Qaradağ, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Qızılbulaq, Dəmirli və Vejnəli qızıl, mis və polimetal perspektiv filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişin həyata keçirilməsi ilə əlaqədar dövləti təmsil etmək səlahiyyəti "AzerGold" QSC-yə verilib.

# "AzerGold" QSC-də Ümumdünya Əməyin Mühafizəsi Günü qeyd olunub

"AzerGold" QSC tərəfindən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES) Ümumdünya Əməyin Mühafizəsi Gününə həsr olunmuş tədbir keçirilib.
"Əməyin təhlükəsizliyi və gigiyenasına inqilabi yanaşmalar: iş yerlərində süni intellekt və rəqəmsallaşmanın rolu" mövzusunda keçirilən tədbirdə "AzerGold" QSC, Daşkəsən Rayon İcra Hakimiyyəti, Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti və ÇİRES-də çalışan podratçı şirkətlərin nümayəndələri iştirak ediblər.
Tədbirdə ÇİRES-də təhlükəsiz iş şəraitinin təmin edilməsi məqsədilə əməyin mühafizəsi və texniki təhlükəsizlik, habelə ətraf mühitin mühafizəsi sahəsində görülən işlərdən bəhs edilib. Bildirilib ki, emal sahəsində ən yüksək standartlara cavab verən texnologiyalar tətbiq edilir, rəqəmsal və avtomatik rejimdə istehsalata nəzarət edən sistemlərdən istifadə genişləndirilir. Bununla istehsalatda bədbəxt hadisələr, peşə xəstəliklərinin qarşısının alınması, əməyin təhlükəsizliyinin qorunmasına nail olunur. Nəticədə fəaliyyət dövrü ərzində "AzerGold" QSC-də təhlükəsiz ötüşən iş saatlarının sayının öz tarixi maksimumuna – 6



milyon saata çatdığı tədbir iştirakçılarının diqqətinə çatdırılıb.
Daha sonra qonaqlar ÇİRES-də yerləşən Çəndə Qələviləşdirmə Zavodunda yaradılmış şəraitlə tanış olublar. Qonaqlara zavodda tətbiq edilən SCADA (İdarəetməyə nəzarət və məlumatların toplanması - Supervisory Control and Data Acquisition) sistemi barədə məlumat verilib. Qeyd olunub ki, SCADA məlumatların toplanması, analizi və uzaqdan idarəetmə üçün rəqəmsal texnologiyalara əsaslanan sistemdir. Sənayedə prosesləri izləmək və idarə etmək üçün istifadə olunan bu tip sistemlər, eləcə də ən son model qurğu və avadanlıqlar insanların zərərli iş mühitinə məruz qalmasının qarşısını alır, yüksək keyfiyyətli istehsalat prosesini təmin edir.
Tədbirdə, həmçinin ÇİRES-də sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit sahəsi üzrə fəaliyyətə töhfə verən "AzerGold" QSC və podratçı şirkətlərin əməkdaşlarına təşəkkürnamə və xatirə hədiyyələri təqdim edilib.

# "Bakcell" ölkəmiqyaslı rebrendinqinin ilk ildönümünü qeyd edir




İnnovasiya və sürət lideri "Bakcell" 2024-cü ildə həyata keçirdiyi strateji və vizual yenilənmə ilə rebrendinqinin ilk ildönümünü qeyd edir. Son bir il ərzində "Bakcell" rəqəmsal gələcəyə doğru sürətlə addımlayaraq, yenilənmiş dizayn və brend strategiyası ilə innovasiya və süni intellekt dəstəkli həllərdən daha geniş şəkildə istifadə etməyə başlayıb. Strategiya çərçivəsində müştərilərə "Birinci Tariff", "VoWifi", "Bakcell Fiber", "Star tarifləri", "Bakcell Kart", "Tarif məsləhətçisi" kimi innovativ məhsul və xidmətlər təqdim edilib. Bu yeniliklər, ilk növbədə, müştərilər üçün innovativ məhsul və xidmətlərin artırılması, bununla da müştəri təcrübəsinin zənginləşdirilməsini hədəfləyir.
Yeni brend strategiyası və müştəriyönümlü yanaşması ilə "Bakcell" bu gün xüsusi olaraq Qarabağ və bütün Azərbaycan bölgələrində ən sürətli, innovativ məhsul və xidmətlərini təklif edir. Rebrendinq nəticəsində Bakcell ölkənin rəqəmsal inkişafına töhfə verməklə yanaşı, innovasiyalara, dayanıqlılığa və milli dəyərlərə sadiqliyini də nümayiş etdirir.

# Mərkəzi Gömrük Hospitalında ekspertlərin zirvə görüşü keçirilib

***23 aprel 2025-ci il tarixində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzi, Mərkəzi Gömrük Hospitalı, rəsmi tərəfdaş Florence Healthcare İnternational Qrup, Azərbaycan İnfeksion Xəstəlikləri və Klinik Mikrobiologiya Cəmiyyətinin birgə təşkilatçılığı, "Nəsil Qrup" MMC və "Ascent" MMC şirkətlərinin dəstəyi ilə "Xəstəxanadaxili infeksiyaların idarə olunmasında müasir tendensiyalar və innovativ yeniliklər" mövzusunda ekspertlərin görüşü keçirilib.***







Tədbirdə açılış nitqi ilə çıxış edən DQK Tibbi Xidmət İdarəsinin rəisi, Əməkdar həkim, t.ü.f.d. Ceyhun Məmmədov xəstəxanadaxili infeksiyaların idarə olunması mövzusunun əhəmiyyətindən danışıb: ***"Bu, səhiyyə sistemlərinin dayanıqlığını təmin edən ən vacib məsələlərdən biridir. Təəssüf ki, statistikalar göstərir ki, hər 10 xəstədən biri xəstəxanadaxili infeksiyalara yoluxur. Bu göstərici xüsusilə orta və aşağı gəlirli ölkələrdə daha yüksəkdir və bu, bizi ciddi narahat etməlidir.***
***Qeyd etmək istərdim ki, xəstəxanadaxili infeksiyalar çox zaman antibiotiklərə davamlı mikroorqanizmlər tərəfindən törədilir. Hazırda dünyada 136 milyondan çox infeksiya növü antibiotiklərə qarşı davamlıdır. Bu, təkcə tibbi deyil, həm də iqtisadi və sosial cəhətdən böyük təhlükə yaradır. Halbuki sözügedən infeksiyaların qarşısının alınması mümkündür".***
DGK Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, t.e.d., Əməkdar həkim, ürək-damar cərrahı Rəşad Mahmudov səhiyyə sahəsində qarşıya çıxan problemlərin təkcə elmi müstəvidə deyil, eyni zamanda praktiki müstəvidə də yanaşma tələb etdiyinə diqqət çəkib: "Tibbin əsas məqsədi insan həyatının qorunmasıdır və bu məqsədə nail olmaq üçün nəzəri biliklər mütləq şəkildə praktikada tətbiq olunmalıdır. Xəstəxanadaxili infeksiyalar məsələsi cəmiyyət üçün olduqca aktualdır. Xəstəxana daxilində infeksiyalara nəzarətin zəif olması, təəssüf ki, bəzən xəstə ölümləri ilə nəticələnə bilər. Halbuki biz sadəcə dezinfeksiya qaydalarına ciddi riayət etməklə bu cür faciələrin qarşısını ala bilərik.
Müasir səhiyyənin imkanları genişlənməkdədir. Artıq ən mürəkkəb cərrahi əməliyyatlar, ağır klinik halların idarə olunması ölkəmizin tibb müəssisələrində müvəffəqiyyətlə həyata keçirilir. Lakin unutmamalıyıq ki, tibbin yüksək texnoloji imkanları belə, əgər əsas gigiyenik və infeksiya nəzarəti qaydaları yerinə yetirilmirsə, istənilən nəticəni təmin edə bilməz".
Səhiyyə Nazirliyinin İctimai səhiyyə və xəstəliklərə nəzarət şöbəsinin müdiri Nəzifə Mürsəlova vurğulayıb ki, tədbirdə müzakirə edilən məsələlər yalnız nəzəri çərçivədə qalmamalı, real praktikada tətbiq olunmalıdır: "Çünki xəstəxanadaxili infeksiyaların qarşısını almaqla biz təkcə xəstələrin deyil, bütövlükdə cəmiyyətin sağlamlığını qoruyuruq. Bu səbəbdən, xəstəxanadaxili infeksiyaların qarşısının alınması ilə bağlı məsələnin ciddiliyi, həm ictimaiyyətə, həm də tibb işçilərinə açıq və aydın şəkildə çatdırılmalıdır. Bu yalnız bir qrupun deyil, bütün cəmiyyətin sağlamlığını qoruyan yanaşmadır".
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Tibbi xidmətlərin inkişaf departamentinin rəhbəri Yaqut Qarayeva TƏBİB tərəfindən 2020-ci ildən etibarən xəstəxanalarda infeksiyona nəzarət komitələrinin yaradıldığına diqqət çəkib: ***"Hər il minlərlə insan sadə profilaktik tədbirlərə əməl edilmədiyi üçün xəstəxana şəraitində infeksiyalara yoluxur. Bu infeksiyalar bəzən ölüm, bəzən isə ciddi fəsadlarla nəticələnir. Ancaq qeyd etməliyik ki, bu, qarşısı alınması mümkün olan bir problemdir. Əsas gigiyena qaydalarına, sterilizasiya və dezinfeksiya prosedurlarına düzgün əməl etməklə, bu infeksiyaların böyük hissəsinin qarşısını almaq mümkündür".***
Daha sonra Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini İsmayıl Əfəndiyev bildirib ki, xəstəxanalarda infeksiyona nəzarətdə xüsusilə laboratoriyaların rolu önəmlidir: ***"Dəqiq və vaxtında diaqnostika infeksiyanın yayılmasının qarşısını almaqda mühüm rol oynayır. Unutmayaq ki, xəstəxanadaxili infeksiyalara nəzarət tibb işçilərinin peşəkarlığı və məsuliyyəti ilə birbaşa bağlıdır. Hər bir səhiyyə əməkdaşı bu məsuliyyəti daşıyır və hər bir xəstə üçün təhlükəsiz mühit yaratmaq lazımdır".***
Qeyd edək ki, Mərkəzi Gömrük Hospitalının infeksionisti Mədinə Abdullayeva "Xəstəxanadaxili infeksiyalarla mübarizənin əhəmiyyəti", İstanbul Hipokrat Laboratoriyalarının icraçı direktoru Oktay Öztürk "BİOMERİEX - xastaxanadaxili infeksiyalarla mübarizəni dəstəkləyən əhatəli bir həll yolu- müasir Türkiyə təcrübəsi", Mərkəzi Gömrük Hospitalının Laboratoriya şöbəsinin rəisi Səbinə İbrahimova "Naməlum etiologiyalı infeksiyon prosesin gedişində molekulyar-genetik müayinələrin üstünlüyü", İstanbul Florence Nightingale Xəstəxanasının infeksion xəstəliklər və klinik mikrobiologiya üzrə uzmanı Aslıhan Dəmirəl "Nazokomial virus infeksiyaları və onlarla müasir mübarizə", Mərkəzi Gömrük Hospitalının İnfeksiyaya Nəzarət Komissiyasının üzvü Səttar Yaqubov "Mərkəzi Gömrük Hospitalında xəstəxanadaxili infeksiyalara nəzarət təcrübəsi", mövzularında-da çıxışlar ediblər.
Sonda çıxış edən Mərkəzi Gömrük Hospitalının rəisi-baş həkim Bəxtiyar Musayev tədbirin önəmli töhfələr verəcəyinə əminliyini ifadə edib, belə tədbirlərin mütəmadi keçirilməsinin zəruriliyini vurğulayıb: ***"Bu zirvə görüşü yalnız bilik və təcrübə mübadiləsi baxımından deyil, eyni zamanda, xəstəxanadaxili infeksiyaların idarə olunması sahəsində sistemli yanaşmaların formalaşması üçün mühüm platformadır. Burada səsləndirilən fikirlər, elmi tədqiqatlar və praktiki təcrübələr səhiyyə işçiləri üçün yol xəritəsi rolunu oynaya bilər".***
Baş həkim Bəxtiyar Musayev bildirib ki, belə tədbirlərin davamlı keçirilməsi həm yerli, həm də beynəlxalq təcrübələrin paylaşılması baxımından olduqca vacibdir və nəticə etibarilə bu cür təşəbbüslər ölkəmizdə infeksiya nəzarət sistemlərinin təkmilləşdirilməsinə, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə və xəstələrin təhlükəsizliyinin təmin edilməsinə mühüm töhfə verəcək.
Sonda iştirakçılar tədbirin önəmli töhfələr verəcəyinə əminliklərini ifadə edib, belə tədbirlərin mütəmadi keçirilməsinin zəruriliyini vurğulayıblar.



**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500